

“Nəqliyyat texnikası və idarəetmə texnologiyaları”kafedrasının dosenti:

***Həmidov Mirhəmid Mirheydər oğlu***

E-poçt: mirhemid.hemidov@aztu.edu.az

Həmidov Mirhəmid Mirheydər oğlu 02 avqust 1947-ci ildə Azərbaycan Respublikasının Sabirabad rayonunda anadan olmuşdur. 1965-ci ildə M.Ə.Sabir adına Sabirabad şəhər orta məktəbinin on birinci sinifini bitirmişdir. 1966-cı ildə Azərbaycan Kənd Təsərrüfatı İnstitunun <<Kənd təsərrüfatının mexanikləşdirilməsi>> fakültəsinə daxil olub, 1972-ci ildə həmin İnstitutu bitirmişdir. 1972-ci ildən 1976-cı ilə kimi Azərbaycan LKGİ Sabirabad rayon komitəsində təlimatçı, təşkilat şöbəsinin müdiri, katib vəzifələrində işləmişdir. Sentyabr 1976-cı il tarixdən iyul 1978-ci il tarixə kimi Bakı Ali Partiya məktəbinin dinləyicisi olmuşdur. 1999-cu ildə Moskva Dövlət Sosial Universitetinin hüquq fakültəsini bitirərək hüquqşünas ixtisası almışdır.

İyul 1978-ci il tarixdən iyun 1986-cı il tarixə kimi Sabirabad rayon xalq nəzarəti komitəsində inspektor, iyun 1986-cı il tarixdən sentyabr 1986-cı ilə kimi Azərbaycan KP Sabirabad rayon komitəsində Kənd təsərrüfatı şöbəsinin müdiri vəzifəsində işləmişdir. 1986-cı ildə Azərbaycan Elmi-Tədqiqat Kənd Təsərrüfatının Mexanikləşdirilməsi və Elektriktrikləşdirilməsi institunun aspiranturasına qəbul olub, 1992-ci ildə aspiranturanı müvəffəqiyyətlə bitirərək Texnika elmləri namizədi alimlik dərəcəsi almışdır. 1986-cı ilin Sentyabr ayından 1988-ci ilin Noyabr ayına kimi Azərbaycan KP MK-nın kənd təsərrüfatı və ərzaq sənayesi şöbəsində təlimatçı işləmişdir. Noyabr 1988-ci il tarixindən fevral 1989-cu il tarixinə kimi Azərbaycan KP Dəvəçi rayon komitəsində ikinci katib, fevral 1989-cu il tarixindən dekabr 1989-cu il tarixinə kimi Dəvəçi rayon XDS İK-nın sədri vəzifələrində işləmişdir. Dekabr 1989-cu il tarixindən oktyabr 1991-ci ilə kimi Azərbaycan KP Sabirabad rayon komitəsinin birinci katibi, Rayon Sovetinin sədri, oktyabr 1991-ci il tarixindən may 1992-ci il tarixinə kimi Sabirabad rayon icra hakimiyyətinin başçısı vəzifəsində işləmişdir. İyun 1992-ci il tarixinindən aprel 1994-cü il tarixinə kimi Azərbaycan ETKME İnstitunda bölmə müdiri – böyük elmi işçi, aprel 1994-cü il tarixindən avqust 1995-ci il tarixinə kimi Milli Məclisin Aqrar məsələləri komissiyasının üzvü olmuşdur. 1990-1995-ci illərdə Azərbaycan Respublikasının Xalq deputatı seçilmişdir.

Fevral 1995-ci il tarixindən hal-hazıra kimi Azərbaycan Texniki Universitetinin “Nəqliyyat texnikası və İdarəetmə texnologiyaları” kafedrasının dosentidir. Beş dərsliyi, 1 monoqrafiyası, 50-dən artıq elmi məqaləsi, elmi əsərləri və bir neçə metodik vəsaitləri, dərs proqramları çap olunmuuşdur. İki səmərələşdirici təklifin və iki ixtiranın müəllifidir.

**Tədris etdiyi fənnlər:**

1. Nəqliyyat mühərrikləri
2. Avtomobillərin elektrik və elektron avadanlıqları

3. Avtomobillərin nəzəriyyəsi
4. Avtomobillərin kompüter diaqnostikası
5. DYM-nin qidalanma sistemləri və ekooloji təhlükəsizliyi
6. DYM-nin quruluşu
7. Nəqliyyat vasitələrinin texniki istismarı
8. Avtomobil təmirinin mütərəqqi texnologiyaları
9. Təkərli maşınların nəzəriyyəsi və hesabı
10. Firma avtoservisində təchizat və logistika
11. Perespektiv və qeyri ənənəvi transmissiyalı avtomobillər

**Monoqrafiya;**

Mineral və üzvi gübrələrin mexaniki üsulla bitki kökünə verilməsinin texnologiyası

**Metotiki işlər:**

12. M.M.Həmidov - <<Traktorların təmiri>> Bakı Elm – 2004, ali məktəblər üçün dərslik.
13. M.M.Həmidov - <<Avtomobil və traktorların konstruksiyası II hissə>> Bakı Elm – 2005, ali məktəblər üçün dərslik.
14. M.M.Həmidov - <<Avtomobil və traktorların nəzəriyyəsi və konstruksiya edilməsinin əsasları III hissə>> Dərslik, Bakı – 2010.
15. M.M.Həmidov, F.M.Əlizadə - Avtomobil və traktorların darrtı hesabına dair metodiki vəsait. Bakı – 2011.
16. M.M.Həmidov – <<Avtomobillərin konstruktiv təhlükəsizliyi>> Bakı, Təhsil NPM 2014.
17. M.M.Həmidov və b. – <<Hibrid avtomobillər və yeni texnologiyaları>> Dərs vəsaiti, Bakı - 2023.